


# Müqayisəli Ədəbiyyatşünaslıq

# Comparative Literature Studies

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 1, 18-26, 2026
DOI: https://doi.org/10.59849/2663-4414.2026.1.18

Araşdırma Məqaləsi / Research Article


## Camal Şakarın “Mürəkkəb” kitabında Mövzu Zənginliyi

*Thematic Richness in the Book “Murekkeb” By Jamal Shakar*


**Sima Şəfizadə**
**E-mail:** sima_adass@mail.ru
**Tel:** +994506024633
**ORCİD**:
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**



Məqalənin gəldiyi tarix/Received: 11.03.2026
Qəbul tarixi/Accepted: 17.06.2026
Nəşr tarixi/ Available Online: 13.07.2026



**Xülasə:** Camal Şakarın müasir Türkiyə ədəbiyyatının, xüsusilə hekayə janrının inkişafında və bu janrla əlaqəli problemlərin təhlil və araşdırılmasında rolu danılmazdır. Onun əsərləri dilinin səlistliyi və mövzularının aktuallığı ilə seçilir. Şakarın dünyagörüşünü hekayə kitablarında aydın görmək mümkündür. Camal Şakarın hekayələrinin qəhrəmanı sosial mühitin bütün problemlərini daxilində yaşayan bir obrazdır. Qəhrəmanının kimliyini aşkara çıxartmaq üçün yazıçı yazdığı bütün kitablarında o cümlədən “Mürəkkəb”də qəhrəmanının daxili dünyasının axtarışındadır. Bu qəhrəman bir tərəfdən keçmişini hesaba çəkən, digər tərəfdən cəmiyyətə hakim olmağa çalışaraq müqavimət göstərən, bəzən də geri çəkilib səssizliyə qapılaraq ünsiyyətsiz bir dünya qurmaq istəyəndir. Mövzu və yazı texnikası Camal Şakarın hekayələrini fərqləndirən mühüm xüsusiyyətlərdir. Hər hekayəsində yeni mövzu axtarışındadır. Kənardan elə də maraq kəsb etməyən hər hansı bir mövzunu yazı texnikası ilə zənginləşdirmə qabiliyyətinə malikdir. Yazı texnikasında istifadə etdiyi ən maraqlı priyomlardan biri də fiksiyadır. Hər bir oxucusuna hörmətlə yanaşan Camal Şakar mətndə işlətdiyi bu priyoma baxmayaraq, oxucusuna çox da bunları ciddiyə almamağı tövsiyə edir. Sadəcə bu priyomlarla oxucusu ilə daha isti və səmimi münasibət qurmaq üçün istifadə etdiyini hər zaman hiss etdirə bilir. Şakarın hekayələrində yol, yolçuluq, təbiətə bağlılıq, insan, cəmiyyət və insanın ətraf mühitlə olan dialoqu, dosta bağlılıq, varlığın və dini həqiqətlərin axtarışı kimi mənəviyyata bağlı, müharibə, qlobal insan və digər dövrü aktual ana mövzular işlənir. Camal Şakar hekayələrində hiss olunacaq şəkildə ruhun bərpası, mənəvi təmizlənmə kimi mövzular aktuallığını saxlamaqdadır. Hətta bu üslubu Sait Faik Abasyanıq təhkiyə üslubuna bənzərliyi ilə müqayisə edənlər də çoxluq təşkil edir. Mətnlərin hər misrasında poetiklik, fikri ahəngli, üslub gözəlliyi ilə təqdim etmək də bundan irəli gəlir



**Açar sözlər:** *hekayə, təhkiyə, fiksiya, aktual mövzu, qəhrəman*



**Abstract:** The role of Jamal Shakar in contemporary Turkish literature, particularly in the development of the short story genre and the analysis and exploration of issues related to this genre, is undeniable. His works are distinguished by the clarity of his language and by addressing the issues of his time. His worldview can be clearly observed in his short story collections. The protagonist of Jamal Shakar’s stories are characters who internalise and live through all the problems of the social environment. In order to reveal the identity of his protagonist, the author explores the inner world of this character in all his books, including “*Mürekkeb*”. This protagonist is, on one hand, someone who questions their past and, on the other hand, someone who resists by attempting to assert control over society, while at times retreating into silence and constructing a withdrawn and isolated world. The subject matter and writing technique are significant features that distinguish Jamal Shakar’s stories. In each story, he seeks out new themes. He possesses the ability to enrich any topic, which might not initially appear very engaging through his narrative technique. One of the most interesting devices he employs in his writing is fictionality. Despite using this technique, Jamal Shakar consistently emphasizes that he does not expect readers to take these elements too seriously. Rather, he uses them to establish a warmer and more intimate relationship with his audience.

In his stories, themes related to spirituality, such as road and journey, attachment to nature, human beings, society, dialogue between humans and their environment, friendship, the search for existence and religious truths are interwoven alongside contemporary and global issues such as war and other current topics. Themes such as the revival of the soul and moral purification remain particularly relevant in Jamal Shakar’s works. Many have even compared his narrative style to that of Sait Faik Abasyanık due to similarities in storytelling technique. Poetic expression, the harmony of thought, and stylistic beauty are evident in every line of his texts, which reflects his literary approach.



**Keywords:** *story, narrative fiction, relevant topic, protagonist*

**Cite as(APA 7):** Şəfizadə, S. (2026). Camal Şakarın “Mürəkkəb” kitabında Mövzu Zənginliyi. *Müqayisəli ədəbiyyatşünaslıq*, *2*, 18-25. https://doi.org/10.59849/2663-4414.2026.1.18

## Giriş / Introduction

Türkiyə hekayəçiliyinin görkəmli nümayəndəsi Camal Şakar 1982-ci ildən bu günə qədər əsərlər yazmaqda davam edir. Şakarın indiyə qədər 10-dan çox hekayə kitabı, yeddi esse/resenziya/tənqid, çoxlu sayda müsahibəsi var. Onun ümumilikdə iyirmi bir əsəri var. Əsərləri dilinin səlistliyi və mövzularının aktuallığı ilə seçilir. O özünün bu aləmə necə daxil olduğunu belə izah edir. "*Bir çox sənətçidən fərqli olaraq, böyüyəndə hekayəçi olacağıma dair əvvəlcədən planlama və şüurlu bir şəkildə bir peşə seçimi etməmişdim. Varlığımı dərindən dərk elədim və özümə ünvanladığım əsas suallara zaman keçdikcə fərqli cavablar tapmağa başladım. Bu cavabların dəyişməsi ilə paralel olaraq, düşüncə və dərk etmə çərçivəm də dəyişdi*". (Lekesiz, 2017, s. 495).

Bildiyimiz kimi, 1980-ci ildəki Hərbi çevriliş (Askeri Darbei) fərdə şəxsiyyət böhranı ilə birlikdə dərin bir bədbinlik və özünəqapanma, inamsızlıq kimi psixoloji problemlər gətirdi. Yaşanan hadisələr təbii ki, ədəbi mühitə də təsir etdi. *"1980-ci illərin hekayələrində məğlubiyyətlər, həyatla mübarizə, getmələr, tərk etmələr, tənhalaşma, böhran, özgələşmə, nostalji və uşaqlığa həsrət mövzuları ön plana çıxmışdır*". (Sümeyye, 2019, s. 24) Bu dövrün ümumi xüsusiyyətlərini öz yaradıcılığında ehtiva edən, özünəməxsus dəstixəttini yaradan müəlliflərdən biri də Camal Şakardır. Camal Şakar hekayənin qısa, lokonik imkanlarından istifadə edərək orijinal ifadələrlə yenilikçi gətirən yazıçı kimi meydana çıxmışdır. İnanclı baxışıyla ədəbi aləmdə seçilən Camal Şakarın dünyagörüşünü hekayələrində də aydın görmək mümkündür. Camal Şakara görə hekayənin mahiyyətində İslamı və Allahı dərk etmək durur. "*Dediyim kimi, mən hər şeyə ideoloji prizmadan baxan, baxmağa çalışan biriyəm. Düşüncələrimin mərkəzində həmişə inanc və etiqadlarım dayanır. Əgər hekayənin hər hansı bir dəyəri axtarılırsa, bu dəyər də inanc və etiqadlara görə müəyyənləşdirilməlidir".* (Öz, 2011, s. 98) fikrini xatırladan Erdal Öz mətndə yazıçı məsuliyyətinin nə qədər ağır olduğuna işarə edir. Onun hekayələri təsvirlər və metaforalarla zəngindir. Yazıçı sanki həm məzmun, həm də forma baxımından uzun bir tədqiqat istiqamətindədir. Onun hekayələrində "yol", "səyahət", "həsrət", "haqq axtarışı", "müsəlmanlar" "dünyanın vəziyyəti" əsas mövzulardır. Dili çox sadədir. Hər ifadəsində olan gerçəklik hekayənin bütün atmosferini öz ağuşuna ala bilir. Bunun iki əsas səbəbi vardır. "*Birincisi, müəllifin seçdiyi baxış bucağı; ikincisi isə süjet quruluşudur*" (Öz, 2011, s. 112).

## Əsas Hissə/ Main Part

Camal Şakarın ilk hekayə kitabı "Gedənlər" 1990-cı ildə "Yeddi iqlim" nəşriyyatında çap olunub. İlk hekayəsi 1982-ci ildə nəşr olunan müəllif üçün bu ilk kitab çoxdan gecikmiş ilk kitab olmaqla yanaşı, həm də doqquz hekayəsi olan nazik bir kitabdır. 1996-cı ildə "Yol Xəyalları" və ondan 3 il sonra, 1999-cu ildə "Xoşbəxtlik Zamanları" adlı hekayə kitabları da nəşr olundu. Daha

sonra 2003-cü ildə “Pəncərə” və 2008-ci ildə “Xəyalpərdəsi” adını verdiyi daha iki hekayə kitabı işıq üzü gördü. 2011-ci ildə “Sel” və “Qum” adı altında ilk dörd hekayə kitabını topladı. 2013-cü ildə o, əlifba islahatından bəhs edən “Səssiz məktublar” kitabını nəşr etdi. Camal Şakar üçün İstanbul, böyük şəhər həyatı, insan hekayələri ilə zəngin olan material mənbəyidir. O, bu materialları dünyagörüşü sayəsində yenidən formalaşdırır. 2012-ci ildə “Mürəkkəb”, 2014-cü ildə “Portağal Bağçaları”, 2016-cı ildə “Qara” hekayələr kitabını nəşr etdirib. 2018-ci ilə gəlincə, onun son kitabı “Onun adı Leyla Olsun” hekayələr kitabını ədəbi ictimaiyyətə çatdırır. Hekayələri kitab şəklində çap olunmamışdan öncə “Yönelişler”, “Mavera”, “Yeddi İqlim”, “Kayıtlar”, “Hece” və “Hece Öykü” jurnallarında çap olunmuşdur.

Onun son illərdə ən məşhur kitabı “Mürəkkəb”dir. (Okur Kitaplığı nəşriyyatı, İstanbul 2012, 12 hekayə). Kitabın daxilində “Qılınc”, “Keçidlər”, “Ədyal”, “Səslər”, “Bıçaq”, “Günəş”, “Bir öykü tahlili”, “Öncə vətən”, “Xəncər”, “Qoxu”, “Babamın qoxusu”, “Uzaq”, “Modern hayatın Hikayəcisi”, “Bir tip adlı hekayələri” var. Bu kitabda Şakarın İslam coğrafiyasına və aktual hadisələrə həssaslığını görə bilərik. Nəcib Tosun “Günümuzün hekayəsi”in də kitab haqqında yazır: “*Şakarın hekayələrində mövzu ənənəyə söykənsə də, forma müasir hekayənin imkanlarına uyğundur*” (Tosun, 2015, s. 153). Ona görə də onun yaradıcılığı mövzu və ideya baxımından bu istiqamətlər üzrə qruplaşdırılır.

1. Şakarın hekayələrində ana mövzu “yol”, “yolçuluq”dur. Qəhrəmanın tərki-dünyalığı ona yad, özgə olan ətraf mühitdən qaçıb, düşüncəsinə yaxın olmayan kütlədən uzaqlaşaraq, məqsədinə çatıb qalib gəlmək cəhdi qəhrəmanımızın yolçuluq haqqında sabit təsəvvürüdür. Bu mövzu fəlsəfi. ənənəvi, simvolik aspektlərdən araşdırılaraq işlənilir.

2. Təbiətə bağlılıq da onun hekayə yaradıcılığına xas cəhətdir. Külək, günəş, ulduzlar, materiya, torpaq metaforik şəkildə işlənən simvolik detallar funsiyasını yerinə yetirirlər. “*Bütün bunlar bir tərəfdən detalın özünün təbiətindən irəli gəlirsə, digər tərəfdən də sənətkarın detal yaratmaq sənətkarlığının nəticəsi kimi ortaya çıxır”*(Teymurov, 2020, s. 81). Hətta yazıçı bu mövzu üzərində işləyərkən insanı təbiətin bir hissəsi kimi göstərir, ondan uzaqlaşmanı insanın, cəmiyyətin faciəsi olaraq qiymətləndirir. Yazıçı Təbiətdə heç bir şeyin nizamsız olmadığını, hər bir hadisənin proqramlaşdırıldığını, varlıq səbəblərini və sirlərini hekayələrində izah etməyə çalışır.

3. Hekayələrində əsas mövzulardan biri də insan, cəmiyyət və insanın ətraf mühitlə olan dialoqudur. Cəmiyyət və insan münasibətləri, onların zamanla necə dəyişdiyi və pisləşdiyi təsvir edilir. İnsanla insanın, insanla cəmiyyətin uzaqlaşması, özgələşməsi problemi vacib detallardan biri kimi vurğulanır. Eşqanə Babayev bu mövzuya toxunaraq yazır ki, *“Fərd və cəmiyyət arasındakı qarşıdurma, insanın cəmiyyətdən təcrid edilməsi, özünü heç bir yerə aid hiss etməməsi kimi ziddiyyətlər bu problemin yaranmasına səbəb olur. Sosial təcridə məruz qalan insan zamanla həm*

*özünə, həm də yaşadığı cəmiyyətə yadlaşmış olur”* (Babayeva, 2020, s. 129). Bu məsələ Şakarın hekayələrinin əsas leymotivini təşkil edir.

4. Camal Şakarın hekayələrindəki dost, dosta bağlılıq vacib detal kimi təsvir edilir. Ayrılan dostluqlar və yaxud iki insanı bir-birinə bağlayan bağlar onun hekayələrinin əsas temasıdır. Hekayələrdə keçmiş xatirələrə bağlılıq, gözəl günlərin xiffəti hiss olunmaqdadır.

Camal Şakar hekayələrində bu mövzuları özünəməxsus yazı texnikası ilə işləyir: “*Sən indi bir hekayə oxumursan, mənim qurduğum bir hekayəni oxuyursan. Halbuki hər an hər şey dəyişə bilər; daxilimdəki hissləri ifadə eləməyə söz çatmaz, nə də məna*” (Tosun, 2015, s. 160). Onun “Mürəkkəb” i də mövzu və xarakter zənginliyi ilə seçilir. Kitabın ilk hekayəsi olan “Qılınc”da qan, qorxu, zülüm, zülmət əsas simvolik detallar kimi hekayənin məzmununu əhatəliyir, şeytana aldanmışlar isə bu zülmətin təsiri ilə yuxuya getmişlərdir kimi simvolizə edilir. V***arlığın və dini həqiqətlərin axtarışı*** hekayənin əsas mövzusudur. Bu hekayədə, yazıçı mistik bir ab-hava yaradır, axtarışları da həmişəki kimi davam edir. “*Azanlar kimi dirildir? Qurumuş bulaqlardan artıq soyuq sular da axmır; qan rəngində sularla alınan dəstəmazlarla uçulub-dağılmış, viran olmuş evlərin salamat qalmış qaranlıq otaqlarında, zirzəmilərində namaz qılınır. Evdəki qalın pərdələr də günün doğmasının qarşısını ala bilmir”* (Şakar, 2017, s. 8). Hekayədə tam olaraq məzmun açıq şəkildə ifadə edilmir və obrazın axtarışı da qeyri-müəyyənliklə nəticələnir. Burada yalnızlıq hissi insanın özü ilə ətrafı arasında universal bir məsafə hissini formalaşdırır. “Keçidlər” adlı hekayəsində də hadisələr müharibəni xatirələrdə deyil, canlı olaraq yaşayan məktəbli bir qızın sözləri ilə təsvir edilir: “*Göz yaşları müəllimin köynəyinə tökülmüşdü. Yeridikcə, silkələndikcə müəllimin köynəyini isladan göz yaşları yanağını da bulaşdırırdı. Hər şey qarmaqarışıq idi. Qarmaqarışıq olurdu hər şey*” (Şakar, 2017, s. 17). Bu təsvirlə müharibənin canlı görüntüsünü insanlara çatdırmaq istəyən italyan jurnalistin yaşadıqları çox təsirlidir: “*Evlərdən çıxarılan cəsədlər küçəyə toplanırdı. Tanış görüntülər idi... Operator yenə də obyektivi ilə nələrisə gizlətmək istəyirmiş kimi görünürdü. Şərhsiz idi”* (Şakar, 2017, s. 15). *“Psixoloji-fəlsəfi məzmunlu hər bir ədəbi əsərin mərkəzində mürəkkəb daxili aləmi olan insan amili dayanır: İnsan, onun duyğuları, düşüncə sistemi, instinktləri və özünə belə etiraf edə bilmədiyi və ya adını qoya bilmədiyi mübhəm duyğuları bu və ya digər şəkildə öz əksini tapır”* (Babayeva E. , 2024, s. 172). Bu təsvirlərin fonunda hər iki obrazın psixoloji sarsıntısı, emosiyaları, iç dünyalarındakı təlatümlər daha təsirli şəkildə işlənmişdir: “*Kaş ki bu, son olaydı, ey əziz oxucu...*” (Şakar, 2017, s. 19) yazıçının müharibəyə bu etiraz səsi isə sonda bu cür səslənir və ədalət hissinin bərpa edilməsinə çağırış kimi diqqət çəkir. Bu çağırış “Mürəkkəb” də “Ədyal”, “Səslər”, “Kiçik şeylər düeti”, “Günəş”, “Öncə vətən” hekayələrinin əsas məzmununu təşkil edir. Bu hekayələrdəki əsas məqsəd ***Türkiyə daxilində və xaricində baş vermiş müharibələrə, terrora etiraz səsini*** dünyaya çatdırmaqdır. “Günəş” adlı hekayəsində 2010-cu il Taksimdə terror aktı “*Belində daşıdığı günəş*

*sönmüşdür; kəpənəklərlə böyüyən göy üzü isə indi qara buludlar kimi onun üzərinə get-gedə daha ağır şəkildə çökür*". (Şakar, 2017, s. 41), "Bir hekayə təhlili" adlı hekayədə isə Sirtdə baş vermiş daha bir terrorun "*Günahsız insanları öldürüb quyuya atırlar, Sənin ağlın bunu qəbul edirmi?*" (Şakar, 2017, s. 45) və onun insan psixolojisində qoyduğu ağır izlərin təsvirindən bəhs edilir. Camal Şakarın "Bıçaq" adlı hekayəsi yeni və fərqli yazı texnikası ilə seçilir. Xüsusilə fikrini düzgün ifadə etmək probleminə diqqət edir. Hekayə boyu yazıçının hadisələrə baxış bucağı, düşüncəsi obrazın daxili ilə səsi bir-birinə qarışır. Daha çox müzakirəyə səbəb olan, məzmun və ideyaca fərqliliyi ilə seçilən "Öncə vətən" hekayəsində Türkiyədə baş vermiş "İnəgöl" adlı siyasi (terror) hadisə işıqlandırılmışdır. *"Polis avtobusundaydı... Çiyinlərində ağır yük.. Ürəyi... sıxılırdı, dözə bilmirdi: "Qardaş", – dedi: – mən hər şeyi vətənimiz və bayrağımız üçün elədim!" – 12 noyabr, 2010"* (Şakar, 2017, s. 50). Hekayədə yazıçı hadisə ilə bağlı bir neçə xırda detaldan başqa bu münaqişənin heç bir siyasi tərəfini əks etdirmir. Onun əsas məqsədi bu hadisələrdə "Öncə Vətən" deyib bütün sevdiklərindən uzaq düşən, amalı, borcu naminə vətən uğrunda mübarizə aparan türk gəncini göstərməkdir. "*Özümü Vətənimə və bayrağıma həsr etdim. Səninlə ola bilmərəm. Çox hərarətli günlər yaşayırıq. Vətənimin və bayrağımın mənə ən çox ehtiyac duyduğu bu günlərdə qəlbim hər şeyə qarşı bağlıdır"* (Şakar, 2017, s. 48) – deyərək sevgilisinə mesaj yazan bu gənc Vətəninin müdafiəsi üçün canından belə keçməyə hazırdır. Yazıçı Vətənə bağlı, millətinə ehtiram, bayrağına hörmət edən bir türk gəncinin vətəndaşlıq mövqeyini nümayiş etdirməklə əzəldən türk millətinə və ideologiyasına xas olan milli-mənəvi ideyaları göstərə bilmişdir. Bu aspektdən yazılan hekayələr sırasında məhz "Öncə Vətən" hekayəsinin adının çəkilməsi təsadüfi deyildir. Yazıçı hadisələr boyunca psixoloji sarsıntılar keçirən, narazılığını və etirazını ifadə edən qəhrəmanın *"Başı yüngülcə dumanlanaraq, "əşşi, mənmi qurtaracağam bu məmləkəti"* (Şakar, 2017, s. 49), – desə də, *"Bir bizmi girəcəyik bu yükün altına, biz – bir neçə gənc?"* (Şakar, 2017, s. 49) kimi inamsızlıq hisslərini və bu hisslərə qarşılıq olaraq qalib gələn Vətən sevgisini nümayiş etdirməklə, onun "*mən, sadəcə, Vətən üçün, Vətənimiz.... bayraq, bayrağımız uğrunda... mən hər şeyi arxada qoydum, öncə Vətən"* (Şakar, 2017, s. 53) – deyərək paralel şəkildə iki dəyişkən xarakterini göstərən, içindəki daxili səsləri və özüylə mübarizə aparan bir obrazın çarəsizliyini təsvir edə bilmişdir. "*Müharibə anlayışı cəmiyyətlərə və fərdlərə oxşar şəkillərdə təsir göstərməkdə və fərdlərin həm cəmiyyətlərə, həm də özlərinə yadlaşmasına səbəb olmaqdadır. Bir yandan müharibənin zalımlığı səbəbindən insanların məruz qaldığı çarəsizlik hissi, digər tərəfdən isə müharibənin lazımsızlığı həqiqəti ilə üzləşmələri onların fərqli hisslər yaşamasına səbəb olmuşdur"* (Akdoğan, 2013, s. 8) kimi fikir məhz bu obrazın daxili aləmini analiz etməyə yardımçı olur. Obrazları yaşadıqları hadisələrin içində düşdükləri psixoloji hallarla birlikdə təsvir etmək Camal Şakar yaradıcılığının əsas xüsusiyyətidir. "*Psixoloji elementlərin birləşdirilməsi povest və romanlara dərinlik, mürəkkəblik qatmaqla bərabər, həm də personajların xarakteri, davranışları və düşüncə prosesləri haqqında oxucuya maraqlı fikirlər təlqin edir"*

(Letifli.S, 2024, s. 156). Hekayədə reallığı əks etdirən bir çox hadisələr həm Camal Şakarın siyasi baxışını, həm də bu hadisələrə yanaşmasını aydın ifadə edir. Onun nəzərində türk gənci sarsılmaz və iradəlidir. Onun üçün Vətən hər şeydən və hər kəsdən öndədir. "Babamın qoxusu", "Qoxu" hekayələrində isə obrazların düşdükləri vəziyyətdən asılı olaraq keçirdiyi psixoloji sarsıntılar oxucuları müharibə mövzulu hekayələr qədər sarsıdır. Camal Şakarın "Mürəkkəb" adlı kitabındakı "Xəncər" hekayəsində övladını düşməndən qorumaq üçün onu təhlükəsiz yerdə gizlədən, ondan güclə ayrılmağa məcbur olan və düşmənin o andaca gülləsinə tuş gələn bir ananın başına gələnlər, müharibə dəhşətləri ana-övlad-müharibə həqiqətləri fonunda açılmaqla bərabər, xarakterlərini formalaşdıran xüsusiyyətlərin də diqqətə çatdırılmasına səbəb olur. "*Anam məni yalnız bir uşağın sığa biləcəyi oyuğa öz əlləri ilə yerləşdirmişdi: "Nə olursa-olsun, nə eşitsən eşit, nə görsən gör, buradan çıxma, daş kəsil" dedi və getdi; gedə bilmədi, mənə baxa-baxa, dönə-dönə baxaraq getdi; gedə bilmədi, daha neçə addım atmışdı ki, səsi göy üzünü yardı"* (Şakar, 2017, s. 57).

1980-ci ildəki Hərbi çevriliş (Askeri Darbei) in şəxsiyyət böhranı ilə birlikdə qazandırdığı bədbinlik və özünəqapanma, inamsızlıq kimi psixoloji problemlərin əksi Camal Şakarın "Modern həyatın hekayəçisi" adlı hekayəsində əsas mövzudur. "12 sentyabr hərbi çevrilişi"i belə xarakterizə edilir: "*Keçmişdən uzaqlaşma, yeniyə alışamamaq səbəbi ilə boşluq, boşluğun gətirdiyi tənhalıq, böhran və yeni axtarışlar ortaq mövzular kimi görülməkdədir"* (Uslu.A, 2016, s. 581). Hekayədəki qəhrəman daha çox tənhalaşma, özgələşmə, yalnızlıq kimi mənəvi-psixoloji vəziyyətlərdə təsvir edilmişdi. Və bu özgələşmə təkcə insanın daxili sarsıntısı nəticəsində və sadəcə, özünə qarşı duyduğu hiss deyildi. Eyni zamanda da yaşadığı cəmiyyətə, vətənə, məxsus olduğu millətə qarşı olan özgələşmə idi. "Modern həyatın hekayəçisi" adlı hekayədə deyildiyi kimi: "*Həyat amansızdır, mən isə burada it olmuşam sanki. Qarşıma çıxana, gözümə zəif görünənə hücum edirəm. Başqa cür ayaqda qala bilmirəm. Lakin bəzən gözləmədiyim, ümid etmədiyim bir hadisə baş verir; təsviri mümkünsüz, sözlə ifadəsi çətin bir hal"* (Şakar, 2017, s. 80) Eyni psixolojik situasiya "Uzaq" adlı hekayəsinin də mövzusudur. Bu hekayədə qəhrəman depressiv vəziyyətdə keçmişə bağlı eyni zamanda həssas, emosional, yorğun və süst əhval-ruhiyyədədir. Ona xoşbəxtlik hissi yaşadan bütün gözəlliklərdən məhrumdur. *"Bir anlıq, həyətdəki daşı görəndə qəlbində bir işıqlanma baş verdi; lakin indi nə hiss etdiyini belə xatırlamırdı: araya dumanlı, bulanıq, mübhəm bir uzaqlıq girmişdi. Qopub gəlmək... bir boşluq... ilk dəfə idi ki, boşluqla üz-üzə qalırdı; əvvəli və sonrası olmayan bir hal"* (Şakar, 2017, s. 71). Bu psixoloji ehval-ruhiyyə hekayənin sonuna kimi davam edir. Oxucu özü belə hiss etmədən qəhrəmanla birlikdə özgələşmənin bir parçasına çevrilir.

Hekayələrində ***qloballaşma mövzusu*** onun yaradıcılığının ana xəttini təşkil edir. Millilikdən uzaqlaşma və qloballaşan dünyada mənəvi bağlardan qopan və qlobal dünyanın qurbanlarına çevrilən xarakterlər təsvir edilir. Bu xarakterlər həm də "Yeni axtarışlar mərhələsi"nin obrazlarıdır. Bu da hər

dövr üçün aktual olan hekayə janrının yeni ideya-məzmun qazanması, yeni insan modeli və onların timsalında dünyaya yeni baxış tərzi əldə etməsi demək idi. Məlumdur ki, müasirliyin ifadəsi və yeni eksperimentlərə, ədəbi təmayüllərə meyillənmək cəhdi hekayəçiliyi hər zaman inkişafda saxlayır. İnsan psixologiyasının dərinliklərinə enmək, müasir insanın ruh halını, düşüncələrini, həyata ənənəvi, bu günə qədər qəbul edilmiş çərçivələr və tələblər daxilindən baxışını təsvir etmək, kənar basqıların təsiri altında necə dəyişdiyini göstərmək müasir hekayəçilikdə əsas tendensiyalardan biri kimi görünür. Təsadüfi deyil ki, bu bir çox tədqiqatçıların da diqqət yetirdiyi əsas cəhətdir. Məsələn, Semih Gümüş hekayə janrının hər zaman dəyişməz qalan əsas xüsusiyyətini bu formada xarakterzə edir: *"Hekayə həyata elə bir ölçü ilə yaxınlaşır ki, bütün toplumu əks etdirən münasibətlərin insanın düşüncəsindəki qarşılığını, şüurun ən dərinliklərində yaşayan saysız-hesabsız xırdalıqlarla oxşarlığını axtarıb tapır"* (Gümüş, 2012, s. 48).

Camal Şakarın "Bir tip" adlı hekayəsindəki qəhrəmanın da həyatına, daxili aləminə təsir etmiş texniki vasitələr onu sosiallaşdırsa da, özünüdərkdən, dəyərlərdən imtina etməsinə, ailəsindən uzaqlaşmasına səbəb olur. *"Outlooku açdı. Trenyoldan, Markofonidən, Morpihodan, Limangodan fürsət mailləri də yağırdı...."* (Şakar, 2017, s. 97). Camal Şakarın bu hekayəsi dövrün tələblərinə görə müasir texnologiyanın termin və anlayışlarıyla əhatə olunmuşdur. Bunlar internet, sosial media və yeni texnoloji ünsiyyət vasitələridir. "*Yazıçı bunlardan istifadə etməklə hekayədəki "müasir insan" obrazını yaratmış, xüsusən də insanların modernizm toruna düşdükləri vəziyyəti təsvir edərək onları real həyatdan, öz kimliyindən uzaqlaşdırmasına səbəb olan Qərb həyat tərzini tənqid etmişdir"* (Şəfizadə, 2023, s. 107). Beləliklə "Mürəkkəb"də Camal Şakarın yaradıcı dünyasını, hekayə və qəhrəmanlarını qısa şəkildə belə xarakterzə etmək mümkün olur.

1. Hekayənin qəhrəmanlarının daxili aləmindəki tərəddüdlərdən kifayət qədər məlumatlı olsaq da, heç birini tam tanıya bilmirik.

2. Müəllif onlara xas, alternativi olmayan dünya yaradıb.

3. Hekayələrində monoloqlar daha çox üstünlük təşkil edir.

4. Hekayənin qəhrəmanlarında özünütənqid güclüdür.

5. Hekayələrində folklor ünsürlərə demək olar ki rast gəlinmir.

6. Hekayənin qurulmasında hər bir sözə böyük bir anlam yükləyən Camal Şakar sözlərin məna səviyyəsini yüksəltməyə çalışır.

**Nəticə/Conclusion**

“Mürəkkəb”dəki hekayələrin mövzu və ideyasını incələdikcə Camal Şakar yaradıcılığının Türkiyə ədəbi düşüncəsi üçün verdiyi töhfələrin nəticəsini görmək mümkündür. Bu isə hekayələrində varlığın və dini həqiqətlərin axtarışında, obrazın psixoloji sarsıntısı, emosiyaları, iç dünyalarındakı təlatümlərin əks etdirilməsində, Türkiyə daxilində və xaricində baş vermiş müharibələrə, terrora etiraz səsini dünyaya çatdırmaq məqsədində, vətənini sevən və yaxud millilikdən uzaqlaşan, daha çox qloballaşan, insani, mənəvi bağlardan qopan və qlobal dünyanın qurbanlarına çevrilən xarakterlərin təsvirindədir.

## Ədəbiyyat / Reference


Akdoğan, M. (2013). *İngiliz Ve Amerikan Savaş Romanında Yabancılaşma.Ernest Hemingway ve Graham Greene: Anakara Universitesi Sosyal Bilimler Enstitüsü Batı Dilleri ve Edebiyatları İngiliz dili ve Edebiyatı Anabilim Dalında yapılan yüksek lisans tezi.* Ankara.

Babayeva, E. (2020). Fahim bey ve Biz Romanında Sosyal Dışlanma:Birey ve Toplum Arasındakı Çelişkiler. *Karamanoğlu Mehmetbey Universitesi Edebiyat Fakültesi Dergisi 3(1)*, 128-135.

Babayeva, E. (2024). Peyami Sefanın " Madmazel Noralyanın kreslosu" romanında dini-mistik axtarışlar. *AMEA. Filologiya və sənətşünaslıq. N2*, 171-177

Gümüş, S. (2012). *Öykünün Kedi Gözü.* İstanbul: Can Sanat yayınları.

Lekesiz, Ö. (2017). *Yeni Türk Edebiyatında Öykü 5 (5 cilddə).* İstanbul: Şule Yayınları.

Letifli.S. (2024). Psychologism in Jamshid Amirov s work. *Poetika.Izm. N1*, 156-161.

Öz, A. (2011). *Cemal Şakarla Öykü Üzerine Söyleşi. Hece Aylık Edebiyat Dergisi. Söyleşi: Cemal Şakarla Öykü Üzerine... Işık Yanarla Roman Üzerine.* İstanbul.

Sümeyye, B. (2019). *Cemal Şakarın Öykülerinde Yapı ve Tema. Fatih Sultan Mehmet Vakif Üniversitesi Lisanüstü Eğitim Enstitüsü Türk dili Ve Edebiyatı Proqramı Yüksek Lisans Tezi.* İstanbul.

Şakar, C. (2017). *Mürekkep.* İstanbul: İz yayıncılık.

Şəfizadə, S. (2023). *Müasir Azərbayacn və Türkiyə hekayələrində milli xarakter problemi(1995-2015-ci il) adlı dissertasiya. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.* Bakı.

Teymurov, T. (2020). *Muxtar Auezovun "Abay" romanında sənətkarlıq məsələləri.* Nur Sultan: Nur Sultan.

Tosun, N. (2015). *Günümüz Öyküsü.* Dedalus Kitap.

Uslu.A. (2016). *1980 sonrası Türk hikayeciliğinde kişi(ler) tipolojisi. Turkish Studies İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic.* Ankara.